# NƏRİMAN NƏRİMANOV



**Nərimanov Nəriman Kərbəlayi Nəcəf oğlu**
(14.04.1870 - 19.03.1925)

Yaziçi, publisist, həkim, ictimai-siyasi xadim
Yaziçi, publisist, həkim, ictimai-siyasi xadim olan Nəriman Nərimanov 1870-ci ildə TİflIs şəhərində anadan olmuşdur. 1890-cı ildə Qori seminariyasını, 1908-ci ildə Novorosiyskiy (Odessa) Universitetinin tibb fakultəsini bitirmişdir. Kommunizmin "parlaq" liderlərinə ürəkdən inanmış, sonralar səhv etdiyini başa düşmüş və peşmanlıqla ömrünü başa vurmuşdur.

1905-ci ildə ildə soial demokrat "Hümmət" təşkilatına üzv olmuş, Rusiyanın sosial-demokrat partiyasının (RSDRP) proqramını türk dilinə çevirmişdir. 1909-cü ildə həbs olunaraq Atraxan şəhərinə sürgün edilmişdir.

1913-cü ildə Bakıya qayıdan Nərimanov fəhlələr arasında təbliğatla məşğul olmuşdur.

Artıq 1917-ci ildə N.Nərimanov "Hümmət" təşkilatının komitəsinin sədri və Bakı şəhəri üzrə RSDRP-in (bolşeviklər) üzvü, "Hümmət" qəzetinin redaktoru idi.

1918-ci ilin baharında Nərimanov Bakı Sovetində şəhər təsərrüfatının üzrə xalq komissarı təyin olunur. Həmin ilin iyun ayında ağır xəstəliklə əlaqədar olaraq Astraxan şəhərinə müalicəyə göndərilir. Sağaldıqdan sonra həmin şəhərdə bir sıra partiya orqanlarında çalışmışdır.

N.Nərimanov 1919-cu ildə Moskvaya çağırılaraq xalq komissarlığının xarici işlər bölməsində yaxın şərq məsələləri üzrə xalq komissarının müavini vəzifəsinə təyin edilmişdir.

Xalq Cümhuriyyəti süqut etdikdən, Bakı işğal edildikdən sonra N.Nərimanov Azərbaycan İnqilabı Komitəsinin (Revkom) və Xalq Komissarları Şurasının sədri təyin edilmişdir.

1922-ci ildə SSRİ yarandıqdan sonra, Lenin və partiya qarşısında xidmətləri nəzərə

alınaraq, Mərkəzi İcra Komitəsinin sədrlərindən biri təyin olunmuşdur.

N.Nərimanov 1925-ci ildə müəmmalı şəkildə ölmüş və Kremlin divarında dəfn edilmişdir.
(mənbə: www.28may.biz).

http://www.kitablar.com
http://www.kitablar.org/